**Bəkir Nərimanoğlu**

# AZƏRBAYCAN MƏTBUATI MÜSTƏQİLLİK YOLLARINDA

**(1988-1991)**

QANUN NƏŞRİYYATI

Kitabda 1988-1991-ci illərdə dövlət qeydiyyatından keçərək nəşr olunmağa başlayan mətbu orqanlardan bəhs edilir. Ayrıca, tədqiqatın hədəfi olan dövrün xüsusiyyətlərindən biri də sovet hakimiyyəti dövründə fəaliyyət göstərmiş nəşrlərin adlarını dəyişərək yollarına davam etməsidir. Bu nəşrlərlə bağlı məqalələrdə əsasən ad dəyişiminin tarixindən, səbəblərindən bəhs edilir. "Yenidənqurma"nın təsiri ilə bir çox dövlət təşkilatları və ictimai qurumların yeni nəşrləri fəaliyyətə başladı. Azərbaycanda qəzet bumu yaşandı. Kitabın son bölməsində bu nəşrlərlə bağlı biblioqrafik məlumatlar verilib.

İlk müstəqil xəbər agentlikləri – "Turan" və "AssA-İradə"dən bəhs edilib.

Kitab tarix, filologiya, mətbuat, ümumilikdə, humanitar sahədə çalışan və təhsil alanlar üçün əsaslı vəsaitdir.

# İÇİNDƏKİLƏR

Qısaltmalar ........................................................................ 7
Müəllifdən ......................................................................... 8

**Birinci bölmə. Yeni yarananlar ............................................ 10**

Məmməd əminin "Gənclik"i .................................................. 10
Azərbaycanı dünyaya, dünyanı Azərbaycana
tanıtdıran "Xəzər" ............................................................ 20
"Azərbaycan"ın dönüşü ....................................................... 28
Azərbaycan xalqına bəxş olunan ilk "Azadlıq" ....................... 47
"Səhər" – güllələnmiş qəzet! ................................................. 66
Mətbuatın "Ayna"sı ............................................................ 81
Qaranlıqdan "Aydınlıq"a ...................................................... 96
Hökumətin "Respublika"sı .................................................. 105
Qərbi azərbaycanlıların "Vətən səsi" .................................... 115
Qəzetlərin "Qarabağ"ı ....................................................... 123
Hüquqşünasların "Ədalət"i .................................................. 131
"Azərbaycan"ın həyatı ........................................................ 138
"Əlincə"nin "Səs"i ............................................................. 156
On ilin "7 gün"ü ............................................................... 168
"Svoboda" – "Azadlıq"ın "rusdilli qardaşı" ............................ 175
Müxalifətin "Müxalifət"i .................................................... 182
"Millət" – müstəqilliyin yaşıdı ............................................. 192
Azərbaycan mətbuatının "Turan" yolu .................................. 197
Azərbaycan mətbuatının "İradə"li yolu ................................. 213

**İkinci bölmə. Adı dəyişənlər .................................................. 220**
"Türk qapısı"nın "Şərq qapısı" ................................................ 220
Yazıçıların "Ədəbiyyat"ı ........................................................... 231
Azərbaycanın "pioner"ləri: biri "Savalan"a,
biri də "Günəş"ə üz tutdu ......................................................... 235
"Sovet kəndi"nin "Bərəkət"i ..................................................... 244
Soydaşlarımız arasında "İki sahil" ............................................ 248
"Kommunist"dən "Xalq"a ......................................................... 251

**Üçüncü bölmə. Qısa-qısa ........................................................ 258**
"YOL" ........................................................................................ 258
"YENİ FİKİR" ............................................................................ 260
"MƏDƏNİYYƏT" ....................................................................... 261
"İNCƏSƏNƏT" ........................................................................... 263
"SİRLƏR XƏZİNƏSİ" ................................................................ 264
"ŞƏFQƏT" .................................................................................. 265
"NOVRUZ" ................................................................................. 266
"İSLAM" .................................................................................... 267
"HİKMƏT" ................................................................................. 269
"FƏRYAD" ................................................................................. 270
"DALĞA" ................................................................................... 271
"CÜMƏ QƏZETİ" ...................................................................... 272
"AYPARA" ................................................................................. 273
"ARZU" ..................................................................................... 274
"ADDIM" ................................................................................... 275
"AÇIQ SÖZ" ............................................................................... 277
"20 YANVAR" ........................................................................... 278

İstifadə olunmuş ədəbiyyat ......................................................... 279

## QISALTMALAR

| | |
|---|---|
| **AMEA** | Azərbaycan Milli Elmlər Akademiyası |
| **AXC** | Azərbaycan Xalq Cəbhəsi |
| **BK** | Bakı Komitəsi |
| **DQMV** | Dağlıq Qarabağ Muxtar Vilayəti |
| **KP MK** | Kommunist Partiyası Mərkəzi Komitəsi |
| **MİP** | Milli İstiqlal Partiyası |
| **MSSR** | Muxtar Sovet Sosialist Respublikası |
| **RSFSR** | Rusiya Sovet Federativ Sosialist Respublikası |
| **SSRİ** | Sovet Sosialist Respublikaları İttifaqı |
| **Sov.İKP** | Sovet İttifaqı Kommunist Partiyası |
| **XİK** | Xüsusi İdarə Komitəsi |

## MÜƏLLİFDƏN

Əziz oxucu! Bu kitab Azərbaycanda 1988-1991-ci illərdə fəaliyyətə başlamış mətbuat orqanları haqqında məqalələr toplusudur.

Həmin dövrdə həm Qarabağda başlayan erməni separatizmi, həm də "yenidənqurma" bir çox yeni nəşrin ortaya çıxmasına səbəb oldu. Qarabağa Xalq Yardımı Komitəsinin "Azərbaycan", "Qayğı" Cəmiyyətinin "Aydınlıq", "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin "Səs", Azərbaycan Qaçqınlar Cəmiyyətinin "Vətən səsi" kimi mətbu orqanları fəaliyyətə başladı.

Moskvanın və Azərbaycan hakimiyyətinin Dağlıq Qarabağ siyasətinə etiraz olaraq ictimai təşkilatlarla yanaşı siyasi qurumlar da yaranırdı. 1989-cu ilin iyulunda təsis olunmuş Azərbaycan Xalq Cəbhəsinin "Azadlıq" qəzeti də bu dövrdə nəşrə başladı.

Yüksək partiya-sovet orqanlarının, Ali Sovet və Nazirlər Sovetinin, öz rəsmi mətbu orqanları da bu dövrdə dərc olunmağa başladı. Nazirlər Sovetinin "Respublika" adlı qəzeti 1990-cı ilin iyulundan, Ali Sovetin "Həyat" adlı qəzeti isə 1991-ci ilin yanvarından çıxmağa başladı. "Kommunist" qəzeti isə sadəcə Azərbaycan KP MK-nın rəsmi orqanı kimi qaldı.

Tədqiqatın hədəfi olan dövrün xüsusiyyətlərindən biri də sovet hakimiyyəti dövründə fəaliyyət göstərmiş nəşrlərin adlarını dəyişərək yollarına davam etməsidir. Bu nəşrlərdən bəziləri yeni adla buraxıldı – "Kommunist" "Xalq qəzeti"nə, "Zavod həyatı" "İki sahil"ə, "Pioner" "Günəş"ə, "Azərbaycan pioneri" "Sava-

lan"a çevrildi. Bəziləri isə köhnə adlarına döndü – "Sovet Naxçıvanı" "Şərq qapısı", "Ədəbiyyat və incəsənət" "Ədəbiyyat qəzeti" oldu. Bu nəşrlərlə bağlı məqalələrdə əsasən ad dəyişiminin tarixindən, səbəblərindən bəhs edilir.

"Yenidənqurma"nın təsiri ilə bir çox dövlət təşkilatları və ictimai qurumların yeni nəşrləri fəaliyyətə başladı. Azərbaycanda qəzet bumu yaşandı. Kitabın son bölməsində bu nəşrlərlə bağlı biblioqrafik məlumatlar verilib.

İlk müstəqil xəbər agentlikləri – "Turan" və "AssA-İradə"-dən bəhs edilib.

Kitabda dövlət qeydiyyatından keçərək nəşr olunmağa başlayan mətbu orqanlardan bəhs edilir. "Samizdat" nəşrlərlə bağlı ayrıca kitab nəşr olunacaq.

Müəllif məqalələri yazarkən arxivlərdə, kitabxanalarda çalışıb, mətbuat orqanlarının qurucuları, əməkdaşları ilə görüşüb, müsahibələr götürüb. Məqalələrdə istinad edilən müsahibələr ilk dəfə dərc olunur.

Bu kitabın yazılmasındaköməyini və məsləhətini əsirgəməyən ustad Hikmət Sabiroğluna və dəyərli müəllimim Aynur Bəşirliyə təşəkkür edirəm.

## Birinci bölmə

## YENİ YARANANLAR




### MƏMMƏD ƏMİNİN "GƏNCLİK"İ

"Gənclik" jurnalı Azərbaycan komsomolunun (Azərbaycan Lenin Kommunist Gənclər İttifaqı Mərkəzi Komitəsi – Azərbaycan LKGİ MK) son nəşri idi.

Jurnalı yaratmaq, ona baş redaktorluq etmək N.Ostrovski adına Ümumittifaq ədəbi və respublika Lenin komsomolu mükafatları laureatı, şair Məmməd İsmayıla[1] həvalə olunmuşdu. Baş redaktorluq təklif ediləndə o, "İşıq" nəşriyyatının direktoru idi. Özünün də sonralar dediyi kimi, vəzifəsi kiçilsə də, bu

[1] Məmməd İsmayıl 1939-cu ildə Tovuzun Əsrik-Cırdaxan kəndində anadan olub. 1957-ci ildə orta məktəbi, 1964-cü ildə Azərbaycan Dövlət Universitetini (indiki Bakı Dövlət Universitetini) bitirib. Əmək fəaliyyətinə 1959-cu ildə fəhlə kimi başlayıb. "Gənclik"ə qədər kəndlərində klub müdiri, Qazax rayonlararası "Qalibiyyət bayrağı" qəzetində korrektor, Bakıda fəhlə yataqxanasında tərbiyəçi, Azərbaycan televiziyasında kiçik redaktor, redaktor, böyük redaktor, "Azərbaycanfilm"in "Elmi-kütləvi filmlər birliyi"ndə baş redaktor, "Yazıçı" nəşriyyatında şöbə müdiri, baş redaktor müavini, "İşıq" nəşriyyatında direktor vəzifələrində işləyib. M.İsmayıla hörmət əlaməti olaraq "əmi" deyə müraciət edilirdi.